

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 181 (23.823)

*1 oktyabr 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çex Respublikasının xarici işlər naziri Yakub Kulhaneki qəbul edib.

Görüş zamanı 2015-ci ildə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən irəli gələn əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsinin vacibliyi vurğulanıb. Qeyd edilib ki, Çex Respublikasının xarici işlər naziri Yakub Kulhanekin Azərbaycana səfəri postkovid dövründə münasibətlərimizin perspektivlərinin nəzərdən keçirilməsi, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, ticarət, iqtisadiyyat, investisiya qoyuluşu, nəqliyyat, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Yakub Kulhanek Çex Respublikası əsgərlərinin Əfqanıstandan təxliyə edilməsi işində Azərbaycanın göstərdiyi köməyə görə minnətdarlığını bildirib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Milli Müdafiə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Milli Müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin Sədri nümayəndə heyətini Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş, ölkələrimiz arasındakı hərbi əməkdaşlıqdan bəhs etmişdir. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində görülən işləri və həyata keçirilən hərbi təlimləri diqqətə çatdıran Ali Məclisin Sədri Naxçıvanda müdafiə təhlükəsizliyinin təmin olunduğunu bildirmiş, İkinci Qarabağ müharibəsində Türkiyə dövlətinin siyasi dəstəyini qeyd etmişdir.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin və Mustafa Kamal Atatürkün əsasını qoyduğu Azərbaycan-Türkiyə əlaqələrinin ölkə Prezidentləri tərəfindən uğurla davam etdirildiyini və strateji tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildirmiş, Qars müqaviləsi və Şuşa bəyannaməsinin, bu mənada, əhəmiyyətini vurğulamışdır.

Göstərilən səmimi münasibətə və nümayəndə heyəti ilə görüşə görə minnətdarlıq edən Türkiyə Milli Müdafiə nazirinin müavini Muhsin Dərə Vətən müharibəsində qazanılmış tarixi qələbə münasibətilə təbriklərini çatdırmış, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir. Qonaq ölkələrimiz arasındakı əlaqələrin tərkib hissəsi olaraq ordu quruculuğu sahəsində görülən işlərin vacibliyini vurğulamış, Naxçıvan Muxtar Respublikasının mühüm strateji və coğrafi əhəmiyyətinə toxunmuşdur.

Görüşdə əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti sentyabr ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının muxtar respublika daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərin azaldılması ilə bağlı əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin 2021-ci il 22 fevral tarixli Qərarında dəyişiklik edilərək un istehsalı ilə məşğul olan şəxslərə satılan unun hər tonuna görə verilməsi nəzərdə tutulmuş subsidiyanın müddəti 2021-ci il sentyabrın 1-dək uzadılmışdır.

Nazirlər Kabinetinin 2021-ci il 17 sentyabr tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında uyğunluq nişanının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları", "Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin aparılması Qaydası", həmçinin "Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları" təsdiq edilmişdir. Sonuncu Qaydalara əsasən uyğunluq sertifikatı və ya uyğunluq bəyannaməsi Naxçıvan Muxtar Respublikasında istehsal olunan mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına, habelə Naxçıvan Muxtar Respublikasına idxal olunan mallara tətbiq edilir. Uyğunluq sertifikatı təsərrüfat subyektinin müraciəti əsasında yüksək riskli malların istehsalı mərhələsində, mal bazara yerləşdirilməzdən, realizə edilməzdən və ya istismara verilməzdən əvvəl texniki reqlamentlərdə nəzərdə tutulmuş uyğunluğun qiymətləndirilməsi üsulu ilə malın, onunla əlaqəli prosesin və istehsal metodunun uyğunluğunun qiymətləndirilməsi nəticələrinə əsasən uyğunluğu qiymətləndirən qurumlar tərəfindən verilir.

Bununla yanaşı, 2021-ci il 27 sentyabr tarixdə Nazirlər Kabineti "Naxçıvan Beynəlxalq Hava Limanının tabeliyində "Aeroport Taksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Qərar qəbul etmişdir.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı" və "Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları" təsdiq edilmişdir. Həmin Qaydalara görə şəxslərin müşayiət olunan baqajları və şəxsi əşyaları piyada keçidlərində quraşdırılmış baxış-rentgen texnikasından, özləri isə metal detektorlar və digər texniki nəzarət vasitələrindən istifadə olunmaqla gömrük nəzarətindən keçirilir. Dövlət Sərhəd-Buraxılış Məntəqəsindən keçən şəxslərin üzərində sərhəd və gömrük nəzarəti həyata keçirildikdən sonra onları dövlət sərhədindən buraxılışı sərhəd mühafizə orqanları tərəfindən təmin edilir.

Nazirlər Kabinetinin 2021-ci il 30 sentyabr tarixli Qərarı ilə "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının muxtar respublika daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər haqqında" Qərarda edilmiş dəyişikliyə əsasən un istehsalçıları tərəfindən satılan unun hər tonuna görə un istehsalçılarına verilən subsidiyanın hesablanması üçün bir ton unun topdansatış qiymətinin yuxarı həddi, un istehsalçılarına ödənilməli subsidiyanın məbləği və istehsalçısının marjası müəyyən edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Növbəti taktiki-xüsusi təlim keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində terrorla mübarizə mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib. Təlimi Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları izləyib.*



Taktiki-xüsusi təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, əsas diqqət şəxsi heyətin binalarda antiterror əməliyyatlarının aparılması, əsir və girovların azad edilməsi bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib. Təlimin ssenarisinə əsasən əhali arasında çaxnaşma yaratmaq məqsədilə şərti düşmənin təxribat-diversiya qrupunun üzvləri bir neçə nəfər mülki vətəndaşı əsir götürərək tərk edilmiş çoxmərtəbəli binada gizlənirlər. Terrorçuların zərərsizləşdirilməsi və əsir götürülmüş mülki vətəndaşlarımızın azad edilməsi tapşırığını almış xüsusi təyinatlı qruplar helikopter və zirehli avtomobillərlə eyni anda binaya həmlə edirlər.

Antiterror əməliyyatlarının icrası zamanı yaralanan hərbi qulluqçumuza çevik şəkildə tibbi yardım göstərilir və yaralının təhlükəsiz şəkildə helikopterlə təxliyəsi həyata keçirilir. Müxtəlif üsul və vasitələrdən istifadə edərək binaya daxil olan xüsusi təyinatlı qruplar təxribatçıları zərərsizləşdirməyə davam edirlər.

Xüsusi təyinatlılarımız yaxın döyüş və atəş üsullarının tətbiqi ilə təxribatçıları qarşılıqlı əlaqədə fəaliyyət göstərmək imkanından məhrum edərək zərərsizləşdirirlər. Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlılarımız təxribatçıların əksəriyyətini məhv edir, müxtəlif silah nümunələrini ələ keçirir, terrorçuların bir neçəsini əsir götürür və mülki vətəndaşlarımızı sağ olaraq əsirlikdən azad edirlər.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin sonunda mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev hazırda uğurla davam edən "Sarsılmaz qardaşlıq – 2021" birgə döyüş atışlı taktiki təlimi ilə bərabər, müxtəlif qoşun növləri və xüsusilə də xüsusi təyinatlı bölmələrlə keçirilən taktiki-xüsusi təlimlərdə hər iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və döyüş əzmi nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**

*1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günüdür*

# Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir



***Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.***

Azərbaycan prokurorluq orqanlarının əsasının formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. ***“Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir”,*** – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanunu, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş “Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında” Referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilməsi qurumun hüquq sistemindəki yerini və rolunu daha da gücləndirmişdir.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Nəticədə, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək muxtar respublika prokurorluq orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2012-ci ildə Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda struktur islahatlarının həyata keçirildiyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturu Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılmışdır.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir”.*** Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir.

*Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi:* ***“Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir”.***

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mətbuat xidməti***

# “Əsrə bərabər illər” kitabının təqdimatı olub

*AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri, AZƏRTAC-ın Naxçıvan bürosunun rəhbəri Rauf Əliyevin “Əsrə bərabər illər” kitabının təqdimatı keçirilib.*





Tədbiri açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, yeni nəşrdə istedadlı jurnalist Rauf Əliyevin AZƏRTAC-da yer alan və “Şərq qapısı” qəzetində dərc olunmuş analitik məqalələri toplanmışdır. Müəllif icmallarda muxtar respublikada ordu quruculuğu, enerji təhlükəsizliyi, elm, təhsil, səhiyyə və başqa sahələrdə həyata keçirilən nəzərəçarpan inkişaf strategiyasını yüksək analitik bacarıqla təhlil etmişdir. Kitabın diqqətçəkən xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, müəllif faktları peşəkarcasına təhlil etməklə yanaşı, eyni zamanda ötən dövrlərlə müqayisələr aparmışdır. Bütün üstün cəhətlərini nəzərə alaraq deyə bilərik ki, “Əsrə bərabər illər” kitabı Naxçıvan Muxtar Respublikasının 2015-2020-ci illər üzrə hərtərəfli inkişafını əks etdirən ensiklopediyadır. Kitabdakı faktların səlis və oxunaqlı təsvirinə diqqətçəkən akademik əsərin Naxçıvanı tanımaq, burada həyata keçirilən inkişafla tanış olmaq istəyən hər kəs üçün faydalı məlumat bazası rolunu oynayacağını vurğulayıb.

Təqdimatda “Aktual analitik janr – icmalların toplusu haqqında” məruzə edən “Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova “Əsrə bərabər illər” kitabını təcrübəli jurnalist Rauf Əliyevin altıillik məhsuldar fəaliyyətinin uğurlu nəticəsi kimi qiymətləndirib. Qeyd olunub ki, icmal janrı analitik janr kimi inkişaf və tərəqqi olan yerdə, eləcə də dövlətçilik ideyaları fəal şəkildə gerçəkləşdirildiyi halda aktuallıq kəsb edir. Bu mənada, yeni nəşrdə toplanan materiallar da muxtar respublikada aparılan quruculuq və inkişaf siyasətinin növbəti bəhrəsidir. Buradakı icmallar həm də müəllifin jurnalist peşəkarlığı ilə diqqət çəkir. Kitabda yer alan fəsillərin hər biri muxtar respublika üçün ictimai-siyasi əhəmiyyətliliyinə uyğun olaraq adlandırılması, yeni nəşrin nəfis tərtibata malik olması müəllifin muxtar respublikada qazanılan çoxşaxəli uğurlara fəal jurnalist mövqeyi bildirməsindən irəli gəlir. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan kitab muxtar respublikanın inkişafı ilə maraqlanan mütəxəssis və tədqiqatçılar, jurnalistika fəaliyyəti ilə məşğul olan hər kəs üçün etibarlı mənbədir.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov yığıncaqda “Naxçıvan mətbuatında altıillik quruculuq salnaməsi” mövzusunda çıxış edib. Kitabın bir sıra mühüm məziyyətlərindən söz açan məruzəçi bildirib ki, müəllif 2015-ci ildən başlayaraq altı il ərzində muxtar respublikada baş verən mühüm hadisələrə xüsusi prizmadan yanaşmış, həm öz sahəsinin peşəkarı, həm də əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. Burada çoxsaylı faktlar vahid dövlətçilik ideologiyası əsasında təhlil olunmuş, bir amal ətrafında birləşdirilmişdir ki, bu da müəllifin vətənpərvərliyindən irəli gəlir.

Tədbirə onlayn iştirak edən AZƏRTAC-ın Regional inkişaf və bölgə xəbərləri redaksiyasının müdiri Ceyhun Rüstəmov “Naxçıvanın sosial-iqtisadi inkişafı AZƏRTAC-ın səhifələrində” mövzulu çıxışında Naxçıvanın sürətli inkişafından söz açıb. Vurğulanıb ki, muxtar respublikanın son 20 ildə iqtisadi artım templərinə görə rekordsmen bölgə olması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Heydər Əliyev siyasətini uğurla reallaşdırmasının bəhrəsidir. Bütün bu uğurları ölkə ictimaiyyətinə, dünyaya çatdırmaq isə qarşıda duran əsas vəzifələrdən biridir.

2014-cü ildən muxtar respublikada fəaliyyət göstərən AZƏRTAC-ın Naxçıvan bürosu təcrübəli jurnalist Rauf Əliyevin rəhbərliyi altında uğurla fəaliyyət göstərir. Onun müntəzəm hazırladığı icmalları bir araya topladıqda isə muxtar respublikanın inkişaf, quruculuq salnaməsi yaranır.

“Şərq qapısı” qəzetinin məsul katibi, kitabın redaktoru Muxtar Məmmədov çıxışında “Əsrə bərabər illər” kitabını Naxçıvan mətbuatına yeni töhfə kimi qiymətləndirib. Kitabın diqqətçəkən məqamlarını təhlil edən məruzəçi bildirib ki, yeni nəşr muxtar respublika həyatının bütün sahələrini əhatə etməklə, qazanılan uğurlar barədə oxucuda əyani təsəvvür yaradır.

Sonda Rauf Əliyev çıxış edərək göstərilən diqqətə görə muxtar respublika rəhbərinə minnətdarlıq edib. “Jurnalistin silahı onun qələmidir. O qələm Vətənə, millətə xidmət etmirsə, o şəxs jurnalist kimi püxtələşməmişdir”, – deyən müəllif vurğulayıb ki, bu qayğı insanı daha şövqlə çalışmağa vadar edir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

***Qədim tarixə malik, Nuh nəfəsli Naxçıvanımız, sözün həqiqi mənasında, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu da səbəbsiz deyil. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi strategiyanın bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində muxtar respublikamızda da sürətli inkişafın, geniş quruculuq və abadlıq işlərinin bəhrələrini görürük. Daha dəqiq desək, Naxçıvan diyarımız yeniliklər dövrünü yaşayır. Şəhər və kəndlərimizdə aparılan məqsədyönlü abadlıq və quruculuq işləri insanların yaşayış səviyyəsini yüksəldib, onları doğma elinə, obasına sıx tellərlə bağlayıb.***

*Müasirləşən kəndlərimiz*

# Sərt qayalar və mərd qalalarla əhatə olunmuş müasir kənd



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlarla təsdiq olunmuş Dövlət proqramları muxtar diyarın inkişafında mühüm rol oynayır.

Muxtar respublikamızın bütün bölgələri kimi, cənnətməkan Ordubad da ilbəil öz simasını dəyişir, yaşayış məntəqələri abad və yaraşıqlı ünvanlara çevrilir. Belə ünvanlardan biri də simasını əsaslı surətdə dəyişən, abad məkana çevrilən, dağlar qoynunda yerləşən, sərt qayalarla, mərd qalalarla əhatə olunmuş, sinəsində müxtəlif dövrlərin tarixini yaşadan Nüsnüsdür.

Nüsnüs kəndi haqqında kiçik araşdırma apararkən məlum olur ki, bu yaşayış məntəqəsinin tarixi qədimlərə gedib çıxır. Bu ərazidə yerləşən məscidlər, nişangahlar, bulaqlar ulularımızın həyat və yaşayış tərzini, inam və etiqadlarını, dini-ideoloji görüşlərini əks etdirməklə bərabər, bu yerlərin qədim tarixə malik olduğunu təsdiqləyir. Tarixiliyi qorunub saxlanılmaqla müasirliyə qovuşan Nüsnüs kəndi ilin bütün fəsillərində öz gözəlliyi ilə diqqət çəkir. Başı duman çalmasına büründə də gözəldir, qoynuna Günəşin zəri ələnəndə də.

Məktəb



Dünən



Bu gün

Dağların zirvəsində tarixə şahidlik edən əfsanəvi “Yalqız ağac” elə bil göylərə boylanıb Naxçıvanın bugünkü intibahını dünyaya duyurmaq üçün car çəkmək istəyir.

Bu ağac 44 günlük savaşda düşmən üzərinə od ələyən Vətənin igid övladlarının əbədiləşmiş heykəlini xatırladır. Kəndin istənilən məhəlləsindən bu ağaca baxdıqda qəhrəmanlıq, əyilməzlik və əzəmət rəmzi ilə qarşılaşırsan. “Yalqız ağac” muxtar respublikamızın son illərdəki bəhrələrini gördükcə qürurlanır, məğrurlaşır. Yayın qızmar havasında ağacın vüqarını bir az da əzəmətləşdirən qartallar ənginliklərdən doğma yurdun yeni növrağını coşqunluqla seyr edir. Barlı-bəhərli payız fəsli olduğundan bağ-bağatın içində bu yurd yeri daha geniş, daha yaraşıqlı görünür. Kəndi yarıya bölüb göz yaşıtək dumduru, üzük qaşıtək şəffaf, parlaq Dübəndi çayı bu gözəlliyə əsrarəngiz ahəng verir.



Tarixi qaynaqlara əsasən bu kəndin tarixi haqlı olaraq eramızdan əvvəl III minilliyə aid edilir. Ərazidə Tunc dövrünə söykənən sak məhəlləsində türkdilli sak etnoslarının məskən salması bunun bariz sübutudur. “Kitabi-Dədə Qorqud” dastanında adıçəkilən “Yelli yurd”, “Çadır daş” bir vaxt oğuz igidlərinin qılınc oynatdıqları, at çapdıqları yerlər olub.

Vaxtilə atamın söylədiyinə görə, xalq qəhrəmanı qaçaq Nəbi də bu yerlərdə olmuş, haqsızlıqlara qarşı mübarizə aparmışdır. Xatırladım ki, “Nəbi qalası” deyilən təbiət abidəsi kəndin ərazisindəki dağlar qoynunda, əlverişli, strateji-coğrafi mövqedə yerləşir. Oradan Dübəndi çayının sahilindəki kəndləri aydın müşahidə etmək, nəzarətdə saxlamaq mümkündür. Hər tərəfdən sıldırım qayalıqlarla əhatə olunduğu üçün onun ətrafına heç bir müdafiə istehkamı çəkilməyib. Abidənin içərisində istehkam xarakterli tikililərin dağılmış qalıqlarını müşahidə etmək olar. Bu gün də bu təbiət abidəsini yaşlı nəsil “Nəbi daşı” adlandırır. Ov dərəsi mağarası Nəbi qalasının aşağısında, şimal hissədə yerləşir. Qaçaq Nəbi “Sak” məhəlləsi adlanan ərazinin ətrafında məskən salmış, Ov dərəsi mağarasının ətrafında pusquya düşmüş və burada yadelli düşmənlərə qarşı amansız mübarizə aparmışdır. Qədim dövrlərin bizə ərməğanı olan “Nəbi qalası”, “Nəbi daşı”, Ov dərəsi mağarası kimi təbiət abidələri kənd turizmin inkişafı sahəsində də əhəmiyyət daşıyır.

Doğrudan da, yurdumuzun hər dərəsini, hər yamacını, hər zirvəsini təbiət elə yaradıb ki, baxdıqca doymaq olmur hüsnündən. Uzaqdan döyüşdən qalib çıxmış igidə bənzəyən əsrarəngiz “Yalqız ağac”ın əzəməti, qaməti də aydın görünür bu yurd yerindən.

Nüsnüs sakinlərinin sayı 2400 nəfərə yaxındır. Rayon mərkəzindən 7 kilometr məsafədə olan bu yaşayış məntəqəsi dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Kənddə görünməmiş min hikmət, bol-bəhrəli min naz-nemət var. İnsanları mehriban və qonaqpərvər, torpaqları bərəkət rəmzidir. Kəndin bərəkətli çölləri, sıralanmış boz təpələri, səngərtək düzülmüş sərt qayaları insanın könlünü oxşayır. Elə dağlara söykəndiyindən özündə də bir dağ cüssəsi var. Təbiətin aşıb-coşan vaxtıdır. Səliqə-sahmanlı həyətlərdə, gül-çiçəkli bağ-bağçada meyvələrin bol olduğu əyyamdır. Qədim yurd yeri bağın-bağçanın içində itib-batır.

Qocaman cəviz ağacları göylərə meydan oxuyur. Eyvanlı, mərtəbəli binaların qarşısında əkilmiş ərik, tut, alma, armud, gavalı, heyva ağacları bu kəndin cazibədarlığını daha da artırır. Alma, armud, heyva ağaclarının meyvəsi qızmar Günəşin şüalarından rəngdən-rəngə düşüb qızarır. Bu yerin dərman bitkiləri, saf və təmiz havası, büllur suları, zümzümə ilə axan Dübəndi çayı bura gələn hər insanı valeh edir. Ulu Yaradan bu kənddən heç bir səxavətini əsirgəməyib. Bu yerlərin ilahi möcüzəsi sayılan dağ ətəklərində nadir ağaclar qorunur. Palıd, çöl armudu, qara yemişan, çöl alçası, itburnu, zirinc və digər bitkilər bu dağların daimi sakinləridir. Qantəpər, boymadərən, çobanyastığı, əvəlik, cacıq, çiriş, çaşır, baldırğan bu torpağın loğmanıdır. Təpələrdə bitən gəvən, quşüzümü nadir kollardandır desək, səhv etmərik. Bu yurd yerinin florası kimi faunası da zəngindir. Dağlarda canavar, tülkü, dağ keçisi, çöl donuzu, dələ, porsuq, oxatan kirpi, qanayaqlı kəkliklər var...

Bu yurdu ikiqat gözəlləşdirən isə son zamanlar qovuşduğu müasirlik hüsnüdür. Heç şübhəsiz ki, hər hansı bir dövlətin bütün istiqamətlərdə yüksək səviyyədə inkişafı onun təhsilinin səviyyəsindən birbaşa asılıdır. Təhsilin inkişafı isə yaradılan tədris şəraiti və həyata keçirilən təhsil islahatları ilə bağlıdır.

Bu il fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən Nüsnüs kənd tam orta məktəbinin yeni binası həm müasir şəraitinə, həm də memarlıq üslubuna, qurulmasına, gözəlliyinə görə seçilir. 414 şagird yerlik məktəb binasında 271 şagirdin təlim-tərbiyəsi ilə 39 müəllim məşğul olur. 3 mərtəbəli, müasir standartlara cavab verən binada 26 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 şahmat sinfi, 2 kompüter, müəllim və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı, bufet vardır. Tədris ocağında 4 kompüter və 4 elektron lövhə internetlə təmin olunub. STEAM kabinəsi üzrə bir elektron lövhə, 2 kompüter, 3D printer, robotların hazırlanması üçün müxtəlif elektron hissə və alətlər, mikrobit və digər qurğularla təchiz olunub.

Həmin kabinədə şagirdlərin əl işləri nümayiş etdirilir. Məktəbdə şagirdlərin təhsili ilə yanaşı, onların fiziki hazırlığı da diqqətdə saxlanılır. İdman zalında voleybol, basketbol, güləş, tennis və idmanın digər növləri üzrə dərs və yarışların keçirilməsi üçün hər cür şərait yaradılıb, həyətdə açıq idman qurğuları quraşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəb binasının açılışında demişdir: ***“Bu gün Nüsnüs kənd tam orta məktəbi ölkəmizin nümunəvi məktəbləri sırasına daxil olur... Məktəbdə yaradılan şərait imkan verəcək ki, şagirdlər dünyagörüşünü formalaşdırsın, müasir həyatın tələblərinə uyğun yetişərək gələcəkdə dünyanın istənilən ali məktəblərində təhsil ala bilsinlər. Ona görə də kollektivin qarşısında duran əsas məsələ gəncləri vətənpərvər, yüksək təhsilli və dünyagörüşlü yetişdirməkdir”.***

Məktəbin məzunları hər il ali məktəblərə qəbul imtahanlarında iştirak edərək uğur qazanırlar. Son 5 ildə məktəbi 49 şagird bitirib, onlardan 24-ü ali məktəblərə, 7-si orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Məzunlardan 8-i 500-700 arası bal toplayıb, 1-i “Qızıl” nişana, eyni zamanda Prezident təqaüdünə layiq görülüb. Ötən tədris ilində şagirdlərdən biri respublika, 2-si isə muxtar respublika fənn olimpiadalarının qalibi olub.

Kəndin yetirmələri arasında bir akademik, 4 elmlər doktoru, 11 müxtəlif elmlər üzrə fəlsəfə doktoru var. Məktəbin məzunlarından 5-i Naxçıvan Dövlət Universitetində, 1-i isə Naxçıvan Müəllimlər İnstitutunda müəllimlik fəaliyyəti ilə yanaşı, elmi yaradıcılıq axtarışları aparırlar. 3 məzun muxtar respublikanın dövlət orqanlarında məsul vəzifələrdə çalışır.

Kənd sakinləri burada yaradılan mədəniyyət evi və kitabxananın xidmətindən də səmərəli istifadə edirlər.





Onlar asudə vaxtlarında müxtəlif növ ədəbiyyatlarla tanış olur, gündəlik dövri mətbuatı izləyirlər. Kitabxananın müdiri Şərqiyyə Salehova söyləyir ki, fondda çoxlu sayda maraqlı elmi və bədii ədəbiyyat var. Oxucular, əsasən, muxtar respublikamızın sosial-iqtisadi və mədəni həyatından bəhs edən ədəbiyyatların mütaliəsinə üstünlük verirlər. Kitabxanada “Oxunması zəruri olan kitablar” bölməsində olan kitablar haqqında gənclərə ətraflı məlumat verilir, onların müzakirələri təşkil olunur.

Muxtar respublika rəhbərinin himayəsi və qayğısı ilə tarixi-mədəni irsimizə göstərilən həssas münasibət su dəyirmanlarımızı da əhatə edir. Kənddə istifadəyə verilən obyektlər içərisində su dəyirmanı da var. Nüsnüsdəki dəyirmanı işlədən İsaq İsmayılov köhnə dəyirmançılardandır. Ata-babası da bu peşənin sahibi olub. Onun üçün dəyirman ailəsinin çörək ağacıdır, el-oba üçün bərəkət təknəsidir. Saclarda, təndirlərdə bişən çörəyin süfrələrə ayaq açdığı ilk yerdir.

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də səhiyyə sahəsində fəaliyyətin daha da canlanmasıdır. Səhiyyə xidmətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması, müasir infrastrukturun yaradılması bu gün Ordubad rayonunda da həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsinə çevrilmişdir.

Nüsnüs kəndində yaradılan həkim ambulatoriyasında sakinlərə yüksək səviyyədə səhiyyə xidməti göstərilir. Burada müayinə və müalicə üçün hər cür şərait var. Odur ki, körpələrin vaxtlı-vaxtında peyvənd olunması diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, körpələrin virusa yoluxma ehtimalı minimuma endirilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və rayon Mərkəzi Xəstəxanasının təşəbbüsü ilə yaradılmış səyyar həkim briqadası tez-tez Nüsnüs kəndində olur, kənd sakinlərini müayinədən keçirir, onlara tibbi məsləhətlər verirlər. Səyyar briqadaların kənddə olması yaşayış məntəqəsində səhiyyə xidmətinin müasir tələblər səviyyəsində olmasını göstərən əsas amillərdən biridir. Ambulatoriyanın baş həkimi Şirin Hüseynov söhbət zamanı bildirdi ki, kollektivimizin əsas məqsədi kənd camaatına nümunəvi tibbi xidmət göstərməkdir. Bu ilin əvvəlində istifadəyə verilən yeni həkim ambulatoriyası kollektivimizin məsuliyyətini xeyli artırmışdır. Buradakı aptek kənd sakinlərinin dava-dərmana olan ehtiyacını ödəyir.

Muxtar respublikamızın yeniləşən, müasirləşən yaşayış məntəqələri sırasında bu gün Nüsnüs kəndi də öz yerini tutub. Kəndin girişindən sonuna qədər uzanan yeni, müasir asfalt yol, Dübəndi çayı üzərində “Top” məhəlləsinə keçid üzərində qurulan geniş və rahat körpülər də, yenilənən hasarlar da Nüsnüsün daha da müasirləşməsinə, əhalinin rahatlığının təmin olunmasına yönəlib.

Qürurla demək olar ki, bu gün Nüsnüs kəndi muxtar diyarımızın yeniləşən, müasirləşən, kompleks inkişafa nail olmuş yaşayış məntəqəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Nüsnüs kəndi tamamilə abadlaşıb, yenidən qurularaq ölkəmizin müasir kəndləri sırasına daxil olub. Burada qurulanlar kəndin bütün sakinlərinin rahatlığına xidmət edəcəkdir. Bütün bunlar dövlətimizin vətəndaşına göstərdiyi qayğının nümunəsi, dövlət-xalq birliyinin, ölkənin iqtisadi inkişafının, sabitliyin, ən əsası isə ümummilli lider Heydər Əliyev siyasətinin, yolunun davam etdirilməsinin və bu yola sədaqətin göstəricisidir”.***

*Bu gün Nüsnüs qəsəbətipli kəndə çevrilib. Burada yaradılmış şərait rahat yaşayışa imkan verib. Bu gün kəndin yurdsevər, el-obaya bağlı insanları bilirlər ki, belə şərait mənalı ömrünü doğma diyarımızın yüksəlişinə, bütün sahələrdə inkişaf, tərəqqi və yenilənməyə həsr edən, öz doğma, əzəli torpağı qarşısında həqiqi övladlıq borcunu şərəflə yerinə yetirən vətənpərvər şəxsiyyətin, QURUCU RƏHBƏRimiz Ali Məclis Sədrinin yorulmaz və səmərəli fəaliyyətinin bəhrəsi, Vətənə, xalqa əsl xidmətin və hüdudsuz sevgi və sədaqətin əyani göstəricisidir.*

**Yunis HÜSEYNOV**
***Ordubad rayonunun Nüsnüs kənd sakini***

## “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçiriləcək yaradıcılıq müsabiqəsinin ELANI

“Şərq qapısı” qəzeti redaksiyası “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə 1 oktyabr-30 noyabr tarixlərində yaradıcılıq müsabiqəsi elan edir.

***Müsabiqənin keçirilməsində məqsəd***

Müsabiqənin keçirilməsində məqsəd muxtar respublikanın aparıcı mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin 100 illik yubileyi ərəfəsində Naxçıvanın qədim mətbuat tarixini, “Şərq qapısı” qəzetində muxtar respublikanın sosial-iqtisadi inkişafının, turizm potensialının, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, tarixi-mədəni irsimizin, elm, təhsil və səhiyyə sistemlərinin inkişafı istiqamətində aparılan işlərin, eləcə də milli dəyərlərimizin təbliği, müstəqillik illərində Naxçıvanda media siyasəti və informasiya təhlükəsizliyinin təmin olunması sahəsində görülən işləri jurnalistlərin təqdimatında geniş oxucu kütləsinə çatdırmaqdan və bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək verməkdən ibarətdir.

***Müsabiqədə iştirak***

Muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan şəxslər, eləcə də mətbuatla və teleradiolarla sıx əməkdaşlıq edən kənar müəlliflər müsabiqədə iştirak edə bilərlər.

***Qiymətləndirmə meyarları***

- *yaradıcı yanaşma, dil və üslub xüsusiyyətləri, işlərin bədii səviyyəsi və keyfiyyəti;*
- *mövzunun əhatə olunması, jurnalist araşdırması və əsaslandırma;*
- *materialın tamaşaçı, oxucu, dinləyici və izləyici üçün informasiyalılıq səviyyəsi;*
- *jurnalist obyektivliyi, qərəzsizliyi və məsuliyyəti;*
- *ictimai və dövlət maraqlarının müdafiəsi.*

***Müsabiqə materiallarına qoyulan tələblər***

Müsabiqəyə təqdim olunan yazılar “Şərq qapısı”, şəhər və rayon qəzetlərinin birində dərc edilməli, yaxud “Nuhçıxan” İnformasiya Agentliyində və ya digər rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında yerləşdirilməli, teleradio materialları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda yayımlanmalıdır.

Hər jurnalist yalnız bir istiqamət üzrə müsabiqəyə material təqdim edə bilər.

Müsabiqə materiallarında “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir” qeydi göstərilməlidir.

***Mükafatlandırma***

Müsabiqədə 6 qalib müəyyən edilir:

*I yer - bir nəfər (1000 manat)*
*II yer - iki nəfər (500 manat)*
*III yer - üç nəfər (300 manat)*

***Müsabiqə materiallarının qəbul qaydaları***

*1. Yazının dərc olunduğu mətbuat orqanının (qəzet, jurnal) nömrəsi və elektron variantı (CD diskdə) - 1 nüsxə*
*2. Teleradio materialı (DVD diskdə) – 1 nüsxə*
*3. İnformasiya agentliklərində və internet media resurslarında verilən yazıların çap (A4 kağızda) və elektron variantı (CD diskdə) – 1 nüsxə*
*4. Şəxsiyyət vəsiqəsinin surəti*

Müsabiqə materialları 1 oktyabr 2021-ci il tarixdən 30 noyabr 2021-ci il tarixə qədər rəsmi iş günləri saat 10[00]-dan 18[00]-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı “Şərq qapısı” qəzetinin redaksiyasına şəxsən təqdim olunmalıdır.

***Ünvan: Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14***
***“Şərq qapısı” qəzetinin redaksiyası***
***Əlaqə telefonu (036) 544-52-52***

## *“Uğura doğru”* layihəsi çərçivəsində *“Motivasiya Forumu – 2021”*



“Naxçıvan” Universitetində “Uğura doğru” layihəsi çərçivəsində “Motivasiya Forumu – 2021” adlı forum keçirilib. Forumda motivator olaraq Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri, “Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının prezidenti Vüqar Abbasov iştirak edib. Forumun keçirilməsində əsas məqsəd gənclərə yaradılan şəraitdən və onlara verilən imkanlardan düzgün faydalanaraq öz bacarıq və qabiliyyətlərini inkişaf etdirmək, biznes sahəsində hədəfləri düzgün seçmək və bütün şəraitdə uğurlu nəticələr əldə etməyin yollarını aşılamaqdır.

Tədbiri giriş sözü ilə “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva açıb. O qeyd edib ki, bu gün muxtar respublikamızda gənclər üçün yaradılan hərtərəfli şərait onların bütün sahələrdə uğur qazanmalarına yol açır. Real motivatorlar vasitəsilə gənclərdə yaranmış ruh düşkünlüyünün aradan qaldırılmasını, şəxsi inkişaf üsullarının formalaşdırılmasını gücləndirmək, postpandemiya dövründə gənclərin sosial və fərdi inkişafına təkan vermək, karyera qurulurkən qarşıya çıxan problemlər və həlli yollarını tapmaq kimi məsələlərin mahiyyətinin tələbələrə çatdırılması yolu ilə gənclərdə seçdikləri peşəyə qarşı həvəsi daha da artırmaq mümkündür.

Tədbirdə çıxış edən Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri, “Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının prezidenti Vüqar Abbasov biznesin əsas strukturlarından, uğurlu biznes planlarının necə hazırlanmasından, hədəflərin düzgün seçilməsindən, müəyyən müəssisələrin yaradılmasında diqqət yetiriləcək məqamlardan, bu sahələrdə satış, marketoloq və bir sıra proseslərə ciddi nəzarət edilməsi qaydalarından danışıb. Sonra gəncləri maraqlandıran suallar cavablandırılıb.

Sonda Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri, “Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının prezidenti Vüqar Abbasova “Naxçıvan” Universiteti tərəfindən “Təşəkkürnamə” təqdim olunub.

Gənclər arasında belə tədbirlərin davamlı olaraq keçirilməsi nəzərdə tutulub.

***“Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

## Uşaq bağçasında seminar keçirilib

***Naxçıvan şəhərindəki 11 nömrəli uşaq bağçasında “Motivasiya nədir və məşğələlər zamanı motivasiya necə qurulmalıdır?” mövzusunda seminar keçirilib.***

Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının metodistlərinin iştirak etdiyi və fəal (interaktiv) məşğələnin mərhələlərinin həyata keçirilməsi qaydaları və yollarından bəhs olunan seminarda Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının metodisti Lamiyə Paşayeva çıxış edərək bildirib ki, fəal



dərsin ən mühüm və mürəkkəb mərhələlərindən biri motivasiyadır. Motivasiya ifadəsi “motiv” sözündən götürülüb və latın dilində “hərəkətə gətirmək”, “sövq etmək” mənası verir. Bağçalarda məşğələ, əsasən, motivasiya ilə başlamalıdır. Yəni tərbiyəçi ortaya qoyulan məsələ barədə məhz uşağın fərziyyələr irəli sürməsinə nail olmalıdır. Beləliklə, tərbiyəçi motivasiya yaradarkən uşaqları hərəkətə gətirir, düşünməyə sövq edir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və dinləyicilərin sualları cavablandırılıb.

Seminarın əsas məqsədi uşaq bağçalarında təlim-tərbiyə işinin keyfiyyətinin artırılması, tərbiyəçilərin bilik və bacarıqlarının daha da inkişaf etdirilməsindən ibarət olub.

**Tural TAPDIQLI**

## Boksçumuz daha bir uğura imza atıb




Azərbaycanın Mərkəzi Ordu İdman Klubunun heyətində karyerasını davam etdirən dəri əlcək sahibimiz Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən boks üzrə hərbçilərin 58-ci Dünya Çempionatında mübarizə aparıb.

İlk dəfə olaraq belə böyük turnirdə 60 kiloqram çəki dərəcəsində rinqə çıxan idmançımız bürünc medal qazanıb. 8 gün davam edən mundialda Tayfur Əliyev yəmənli, braziliyalı və iranlı rəqiblərini məğlub edərək yarımfinala yüksəlib. Ancaq boksçumuz yüksək hərarəti olduğu üçün həkimlərin rəyinə əsasən rinqə çıxmaqdan imtina edib. Nəticədə, texniki məğlubiyyət alan idmançımız dünya çempionatında bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

*Estafet*

## Ahıllarımız ən çox sevgiyə, qayğıya layiq olanlardır



Ağsaqqalsız, ağbirçəksiz həyatı təsəvvür etmək mümkün deyil. Onlar həyatı mənalandıran, ona rəng qatan, örnək verən, nümunə olan insanlardır. Onlar ahıllardır. Ahıl insan hər bir ailənin möhkəmliyi, dadı-duzu deməkdir. Cəmiyyət üçün də ahıl insan əvəzolunmazdır. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Belə bir deyim vardır ki, gənclərin aynada görə bilmədiklərini, yaşlılar bir kərpic parçasında oxuyarlar. Onların zəngin həyat təcrübəsindən faydalanmaqdan əlavə biz onlara bir ömür sevgi borcluyuq. Bizi dünyaya gətirən, min bir əzab-əziyyətlərlə boya-başa çatdıran bu insanların qayğısına qalmaq, nazını çəkmək bizim şərəfli vəzifəmizdir.

Dünyanı dərk edib, özümüzü tanıyandan bəri hər zaman ətrafımızda ata-anaya hörmət, ağsaqqala, ağbirçəyə dərin ehtiram görmüşük. Bu, ta qədimdən Azərbaycan ailəsinin ən ali və müqəddəs dəyərlərindən olmuşdur. Amma təəssüf ki, bəzən bunun əksini də görürük. Çox acınacaqlı haldır ki, yaxınlarını itirərək qocalar evinin sakinlərinə çevrilmiş ahılların içərisində atılmış yaşlılara da rast gəlmək mümkündür. Bəzən valideynlər övlad qayğısından kənar qalır, böyüdüb boya-başa çatdırdığı övladından soyuq münasibət görür. Belə olan halda, bir zamanlar yeni doğulan körpələri üçün böyük sevinclər yaşayan bu valideynlər həmin övladları tərəfindən atılaraq kimsəsizliyə düçar olurlar. Belə ahıllar dövlətin yüksək qayğısı ilə əhatə olunmalarına baxmayaraq, onların ən böyük ehtiyacı övlad sevgisidir. Hazırda övlad sevgisinə həsrət qalan neçə-neçə insan var. Harada yaşamasından asılı olmayaraq, tənha, kimsəsiz ömür sürən bu ahıllara məhz bu yaşında diqqət, qayğı göstərilməsi vacibdir. Unutmayaq ki, hər bir insan yaşlanmağa məhkumdur, əgər qismətində varsa. Bu gün valideynlərini tənha qoyub gedən, onları köməksiz buraxan övladlar bilməlidir ki, həyatın bu imtahanına hər kəs hazır olmalıdır. Yaşlı nəslə, xüsusən də qocalara, ahıllara, ağsaqqallara dayaq durmaq, onlara köməklik göstərmək hər birimizin mənəvi borcudur. Yetişməkdə olan gənc nəslin doğru tərbiyələnməsi üçün bunlar vacib şərtlərdən biridir. Bu haqda müdrik atalarımızın daha gözəl kəlamı vardır: “Qocalara hörmət et, sən də qocalacaqsan!” Gecələri yatmayıb başımızın üstündə lay-lay söyləyən anakarımızı, alnının təri, əlinin qabarı ilə bizi böyüdən atalarımızı qocalığın qərib axşamında yalnız qoymaq, sevgidən, qayğıdan məhrum etmək isə heç bir insanlığa yaraşmayan davranışdır.

Ahıllara və yaşlı insanlara hər zaman dərin ehtiram, onlara qayğı və nəvazişlə yanaşmaq milli dəyərlər sistemimizin əsasını təşkil edir. Bu qədim ənənənin zamanın süzgəcindən keçərək dövrümüzədək gəlib çatması və bu dəyərlərin yüksək səviyyədə qorunması sevindirici haldır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda ahıl insanlara hərtərəfli dövlət qayğısı göstərilir, onların maddi-məişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Pensiya və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması ahıllara göstərilən davamlı dövlət qayğısının ifadəsidir.

Muxtar respublikamızda sosial-iqtisadi inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin də ilbəil artmasına, yaşayış səviyyəsinin yüksəlməsinə hərtərəfli şərait yaradıb. Bütün bunlar gənc nəslə ahıllara hörmət və ehtiram, ali münasibət göstərmək, onların qayğısına qalmaq kimi humanist hisslər aşılayır.

Belə bir deyim vardır ki, hər ömür bir kitabdır, vərəqlədikcə arxada qoyub gəldiyin illərin izi görünür. O kitabın hər səhifəsi dününənə işıq salır, bu günü yaşadır. Gəlin ömür kitabımızın səhifələrini insani dəyərlərlə, böyüklərimizə hörmət və sevgi ilə dolduraq ki, dünyamız aydınlansın. Ahıl yaşına çatmış böyüklərimizi başımıza tac, gözümüzə çıraq edək. Çünki onlar sevgiyə, hörmətə və qayğıya ən çox layiq olanlardır.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Tələbələr cərrahi əməliyyatı onlayn izləyiblər

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Tibb Kollecinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə hamiliyə verilməsi yüksək ixtisaslı kadrların hazırlanması üçün zəmin yaradıb. Tələbələr, həkim-rezidentlər tibb müəssisələrində praktik təcrübələrini artırır, qrafik əsasında növbələrə salınmaqla sərbəst işləmələri təmin edilir.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən cərrahi əməliyyatların videoformatda izlənilməsi də tələbələrin praktik vərdişlərinin yüksəlməsində mühüm rol oynayır. Xəstəxanada aparılan laparoskopik xolesistektomiya əməliyyatının tələbələrə videoformat şəklində təqdim olunması da bu istiqamətdə həyata keçirilən növbəti tədbir olub. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin həkim, rezident və tələbələri cərrahi əməliyyatda onlayn iştirak ediblər. Sosial şəbəkə üzərindən iki saatdan artıq müddətdə canlı yayımlanan onlayn əməliyyatda proses izah edilib, tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


***İtmişdir***

Məhərrəmov Taleh Əli oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Kiçikoba kəndində yaşamış Həsənov Salamat Məmi oğlunun adına verilmiş JN-023A və JN-023B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

* * *

Muradova Fəridə Gülmalı qızının adına olan evin 9766 inventar nömrəli texniki pasportu və 01712 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:*** **Güntac Şahməmmədli**

***Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.***

**Tiraj: 1500. Sifariş № 810**